## Elektron xidmətlər biznes mühitini sağlamlaşdırır

Azərbaycan Milli Sahibkarlar (İşəgötürənlər) Konfederasiyasının prezidenti Məmməd Musayev ölkədə sahibkarlığın mövcud durumu və inkişaf perspektivləri, rəhbərlik etdiyi qurumun həyata keçirdiyi layihələr barədə fikirlərini bölüşür.

**- Məmməd müəllim, «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında qeyri-neft sektorunun inkişafı prioritet məsələlərdən biri kimi götürülür. Ümumi daxili məhsulun qarşıdakı 10 ildə 2 dəfə artımı prosesində sahibkarlıq subyektlərinin rolunu necə görürsünüz?**

- Respublikamız öz iqtisadiyyatını sırf təbii resurslar hesabına inkişaf etdirmir, iqtisadiyyatın şaxələndirilməsi siyasətini həyata keçirir. Bunun nəticəsidir ki, 2012-ci ilin birinci rübündə qeyri-neft iqtisadiyyatı 11,3%, qeyri-neft sənayesi 8,3% artıb. Lakin Azərbaycan hökuməti qeyri-neft sektorunu iqtisadiyyatın lokomotivinə çevirməyi qarşıya məqsəd qoyub. Respublikamızın gələcək tərəqqisinin konturlarını müəyyənləşdirəcək «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında qeyri-neft sektorunun, əsasən, üç istiqamətin: informasiya-kommunikasiya texnologiyalarının, turizm sektorunun və kənd təsərrüfatında rentabelli sahə sayılan üzümçülüyün inkişafı xüsusi diqqət mərkəzində olacaq. Ölkədə hər üç sahənin inkişafı üçün yaxşı potensial mövcuddur və ölkə sahibkarları bundan səmərəli istifadə edərək ümumi daxili məhsulun artımı prosesinə layiqli töhfələrini verəcəklər.

**- Rəqabətədavamlı məhsul istehsalı qeyri-neft sektorunun inkişafının vacib şərtlərindən biridir. Ölkə sahibkarlarının ixrac potensialı necədir?**

- Ölkə rəhbərliyinin yürütdüyü iqtisadi siyasət Azərbaycanın qeyri-neft sektorunun inkişafı yolu ilə daxili tələbatın təmin edilməsinə, rəqabətədavamlı məhsulların istehsal olunmasına hesablanıb. Müşahidələr göstərir ki, son illərdə ölkədə istehsal olunan məhsulların həcmi artır, keyfiyyəti yaxşılaşır. Yeni yaradılan müəssisələrin texnoloji imkanları dünya standartlarına cavab verdiyindən, onların məhsulları da rəqabət qabiliyyətlidir. Xüsusilə, kənd təsərrüfatında istehsal olunan meyvə-tərəvəzin keyfiyyəti bizə imkan verir ki, dünya bazarlarına ekoloji təmiz məhsul çıxaraq.

Bundan başqa, ölkənin ixrac potensialının davamlı şəkildə yüksəldilməsi üçün müxtəlif ölkələrdə sərgilər, konfranslar təşkil olunur. Azərbaycan şirkətləri xarici ölkələrdə keçirilən tenderlərdə iştirak edir, müxtəlif layihələri icra edirlər. Əksər dövlətlərdə «Azərbaycan evi»nin yaradılması istiqamətində məqsədyönlü iş aparılır. Bu mərkəzlərin köməyi ilə yerli ixracatçıların dünya bazarlarına çıxış imkanları genişlənəcək.

Sumqayıt texnologiyalar parkının yaradılması da ölkənin ixrac potensialının yüksəldilməsi istiqamətində mühüm addımdır. Burda fəaliyyət göstərən zavodlarda istehsal olunan kabel, polietilen və plastik borular, günəş batareyaları, yüksək gərginlikli transfarmatorlar, ölçü cihazları, qoşqular və s. məhsullar dünyanın bir çox ölkələrinə ixrac olunur.

Bundan əlavə, respublikamız kənd təsərrüfatı məhsullarını Rusiyaya və digər MDB ölkələrinə ixrac edir. Ənənəvi təzə və konservləşdirilmiş tərəvəz və meyvələrdən, o cümlədən nar, xurma, fındıq, çay, şərab, xalça və pambıqdan əlavə, xaricdə meyvə şirələrinə, nar şərablarına, bitki və heyvan yağlarına, kimya sənayesi məhsullarına, tikinti materiallarına da böyük tələbat var.

**- Rəhbəri olduğunuz Konfederasiya sahibkarlarla iş sahəsində hansı tədbirləri həyata keçirir?**

- Sahibkarlar, dövlət orqanları, yerli qurumlar və beynəlxalq təşkilatlarla daimi olaraq sıx əlaqədə fəaliyyət göstəririk. Təşkilatımız Beynəlxalq İşəgötürənlər Təşkilatının, Sənayeçilərin və Sahibkarların Beynəlxalq Konqresinin üzvüdür. Bundan başqa, ASK-nın xarici ölkələrin Azərbaycandakı səfirlikləri, Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Avropa Birliyi Komissiyası və digər təşkilatla əməkdaşlığı ildən-ilə genişlənir.

Ümumiyyətlə, Konfederasiya ölkənin davamlı inkişafını təmin edəcək yeni iqtisadi siyasətin həyata keçirilməsində və bununla bağlı qanunvericilik bazasının təkmilləşdirilməsində yaxından iştirak etməyə çalışır. Azərbaycanda istehsal olunan mal və materialların, xüsusilə qeyri-neft sektoruna aid sənaye və kənd təsərrüfatı mallarının dünya bazarına çıxarılması üçün mövcud

beynəlxalq əlaqələrin inkişaf etdirilməsinə, yeni əlaqələrin qurulmasına önəm veririk. Konfederasiyanın xətti ilə ölkə sahibkarları Azərbaycan-Vyetnam, Azərbaycan-İtaliya, Azərbaycan-Stavropol, Azərbaycan-Gürcüstan, Azərbaycan-Almaniya, Azərbaycan-Türkiyə və digər biznes forumlarında təmsil olunmuş, eyni zamanda, İqtisadi İnkişaf Nazirliyinin xəttilə Bakıda və regionlarda keçirilmiş tədbirlərdə yaxından iştirak etmişlər.

Əlbəttə, görülən işlərlə kifayətlənmirik. Hesab edirik ki, konfederasiyamız fəaliyyətini daha da canlandırmalı, müasir dövrün tələbləri ilə uyğunlaşan iş ahənginə nail olmalıdır.

**- Sahibkarlara elektron xidmətlərin təşkili sahəsində həyata keçirilən tədbirləri necə qiymətləndirirsiniz?**

- Elektron xidmətlərin bütün sahələrdə tətbiqi müasir dövrun aktual tələbidir. Ölkə başçısının tapşırıqları, fərman və sərəncamları əsasında son illərdə bu istiqamətdə mühüm layihələr həyata keçirilib. Vergilər Nazirliyinin sahibkarlara elektron xidmətlərin təşkili sahəsində həyata keçirdiyi tədbirlər xüsusilə diqqətəlayiqdir. 2011-ci il iyulun 1-dən Azərbaycanda fiziki şəxs kimi sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən iş adamları qeydiyyat orqanına getmədən, vaxt itirmədən internet vasitəsilə onlayn rejimdə - bir neçə dəqiqə ərzində qeydiyyata alınırlar. Bu ildən hüquqi şəxslərin də elektron formada qeydiyyatına  başlanılıb. Bütün bunlar operativliyi və şəffaflığı təmin etməklə, Azərbaycanın beynəlxalq arenada müsbət imicinə öz təsirini göstərir.

Bununla yanaşı, Azərbaycan Sahibkarlar Konfederasiyası və Vergilər Nazirliyi arasında əldə olunmuş razılaşmaya əsasən, ölkənin müxtəlif  bölgələrində yaradılmış vergi xidməti mərkəzlərində vergi əməkdaşları ilə birlikdə Konfederasiyanın təmsilçiləri də çalışırlar. Sahibkarlar vergi hesabatlarını bu mərkəzlər vasitəsilə göndərə bilirlər. Gələcəkdə sahibkarların işini daha da asanlaşdırmaq, göstərilən vergi xidmətinin əhatə dairəsini genişləndirmək üçün belə mərkəzlərin və orada göstərilən xidmətlərin sayının artırılması nəzərdə tutulur.

**- Vergilər Nazirliyinin nağdsız ödənişlərin stimullaşdırılması, POS-terminalların quraşdırılması sahəsindəki fəaliyyətini sahibkarlar necə qarşılayırlar?**

- Dünyanın bir çox ölkələrində kommersiya banklarının prioritet məqsədlərdən biri nağdsız hesablaşma əməliyyatlarının yüksək səviyyədə təşkilidir. Bütövlükdə bu fəaliyyət növü ödənişlərin daimi və dayanıqlı axınlarını formalaşdırır. Daha dəqiq desək, məhsul, xidmətlər, valyuta və qiymətli kağızların alıcılarından satıcılara, vergi ödəyicilərindən büdcəyə, büdcədən büdcə təşkilatlarına və s. fasiləsiz ödənişini təmin edir.

Dövlət başçısının tapşırığı əsasında Vergilər Nazirliyi və digər dövlət qurumları nağdsız ödənişlərin stimullaşdırılması istiqamətində fəal iş aparırlar. Hesab edirəm ki, həyata keçirilən tədbirlər külli miqdarda pul nişanlarının çap edilməsinə, saxlanılmasına, daşınmasına, yenidən sayılmasına sərf olunan xərclərin kəskin surətdə azalmasına, müştərilərin rahatlığının təmin olunmasına, hesablaşmaların şəffaflığının artırılmasına imkan verəcək. Eyni zamanda, ölkədə pul dövriyyəsinə nəzarət güclənəcək, şəffaflıq və hesabatlılıq yüksələcək.

Samir MUSTAFAYEV